

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 139 (23.050)

26 iyul 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı şurasının iclası keçirilib

***İclasda 2018-ci ilin birinci yarısında görülmüş işlər və qarşıda duran vəzifələr barədə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli məruzə edib.***

Bildirilib ki, müstəqil Azərbaycan Respublikasında dövlət quruculuğu prosesi bilavasitə Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bağlıdır. 26 il əvvəl Naxçıvanda ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan partiya dahi liderin milli dövlətçilik konsepsiyasını dönmədən həyata keçirib. Ötən müddətdə ölkəmiz, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası sürətli inkişaf yolu ilə irəliləyib. Muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri müasirliklə qədimliyin, Şərq və Qərb mədəniyyətlərinin qovuşduğu məkana çevrilib. Şəhərimizin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı və Azərbaycanın Gənclər Paytaxtı elan edilməsi onun beynəlxalq tədbirlərin keçirildiyi məkan kimi nüfuzunu daha da artırıb. Bütün bu inkişaf proseslərində Yeni Azərbaycan Partiyasının üzvləri də yaxından iştirak ediblər.



Qeyd edilib ki, partiyanın Naxçıvan Şəhər Təşkilatı öz fəaliyyətini Yeni Azərbaycan Partiyasının qurultayları, partiyanın Muxtar Respublika Təşkilatının 2014-cü ilin noyabrında keçirilən V Konfransı və Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il martın 16-da keçirilən iclasında qarşıya qoyulan vəzifələrin ardıcıl icrası istiqamətində quraraq, cəmiyyətin ümumi inkişaf tempinə adekvat fəaliyyət göstərib. Bu baxımdan təşkilatın 2018-ci il üçün iş planında nəzərdə tutulan tədbirlərin vaxtlı-vaxtında və yüksək səviyyədə həyata keçirilməsi, ilk təşkilatlarla işin gücləndirilməsi, siyasi-ideoloji işdə və partiyaya yeni üzvlərin cəlb edilməsi məsələsində keyfiyyət amili prioritet təşkil edib.

Ötən müddətdə təşkilatda 5 İdarə Heyəti, 2 şura yığıncağı, əlamətdar və tarixi hadisələrlə bağlı 5 elmi-praktik konfrans, 1 kütləvi idman yarışı, 1 dəyirmi masa, 2 treninq olmaqla, ümumilikdə, 10 kütləvi siyasi tədbir, partiyaya üzv qəbulu ilə bağlı müsahibələr keçirilib.

2018-ci ilin 6 ayı ərzində Yeni Azərbaycan Partiyasına üzv qəbul olmaq üçün müraciət edən 513 nəfərdən 485-i partiya sıralarına qəbul olunub ki, bunlardan da 474 nəfərini və ya 97,7 faizini 18-35 yaşlı gənclər, 283 nəfərini və ya 58,3 faizini qadınlar təşkil edir. Nəticədə, 2018-ci il iyulun 1-nə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı üzvlərinin sayı 17 min 484 nəfərə çatıb ki, bunlardan 9178 nəfəri, yaxud 52,5 faizi qadınlar, 10 min 487 nəfəri, yaxud 60 faizi 18-35 yaş arası gənclərdir. Üzvlərdən 2 nəfəri Azərbaycan Respublikası Milli Məclisinin, 19 nəfəri isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarıdır. Həmçinin təşkilatda 2 akademik, 6 AMEA-nın müxbir üzvü, 26 elmlər doktoru, 162 fəlsəfə doktoru təmsil olunub.

Sonra məruzə ətrafında çıxışlar olub. Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin sədri Cəbi Quliyev, ərazi ilk təşkilatı sədrlərindən şura üzvləri Rasim Bağırov, Çapay Quliyev və Orxan Bağırov çıxış ediblər.

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn məsələlərin, 2018-ci ilin birinci yarısında görülmüş işlər və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilib.***

Tədbiri giriş sözü ilə açan komitə sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov qeyd edib ki, dövlətimiz tərəfindən gömrük xidmətinin modernləşməsi, yüksək iş və xidmət şəraitinin yaradılması diqqətdə saxlanılıb. Belə ki, Dövlət Gömrük Komitəsinin inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılıb. Hesabat dövrü ərzində iş prosesinin avtomatlaşdırılması və idarəetmənin təkmilləşdirilməsi, xüsusilə diqqətdə saxlanılıb. 2017-ci ilin dekabr ayında Ali Məclis Sədrinin İran İslam Respublikasına rəsmi səfəri zamanı əldə olunmuş razılığa əsasən Culfa gömrük sərhəd-buraxılış məntəqəsi 24 saatlıq iş rejiminə keçirilib. Sutkalıq iş rejiminə keçid həmin gömrük orqanından istifadənin daha da yaxşılaşmasına, gediş-gəlişin fasiləsiz təmin olunmasına, xarici ticarət dövriyyəsinin artmasına, tranzit imkanlardan daha geniş istifadəyə şərait yaradıb.

Komitə sədri vurğulayıb ki, 2018-ci ilin birinci yarısında muxtar respublika gömrük orqanları tərəfindən büdcə daxilolmaları üzrə proqnoztapşırığa 100 faiz əməl edilib. Belə ki, büdcənin formalaşdırılması üçün yanvar-iyun ayları ərzində 3 milyon 806 min 527 manat vəsait toplanaraq təyinatı üzrə köçürülüb. Büdcəyə köçürülmüş gömrük ödənişləri 2017-ci ilin eyni dövrü ilə müqayisədə 722 min 502 manat çox olub.

Muxtar respublikamızın dünya iqtisadiyyatına inteqrasiyasının mühüm göstəricisi olan xarici ticarət dövriyyəsinin vəziyyətini təhlil edən komitə sədri xarici ticarət əlaqələrinin genişləndiyini, ixrac potensialının gücləndiyini önə çəkib. Qeyd olunub ki, hesabat dövründə 53 ölkə ilə 212 milyon 318 min 800 ABŞ dolları dəyərində ticarət əməliyyatları aparılıb. İxrac əməliyyatları, əsasən, Türkiyə, İran, Gürcüstan, Rusiya, Küveyt və Birləşmiş Ərəb Əmirlikləri ilə həyata keçirilib. İxracın strukturunda sənaye məhsullarının payı 79 faiz olub.

2018-ci ilin birinci yarısında gömrük orqanları tərəfindən qaçaqmalçılığa qarşı mübarizə istiqamətində də səylər artırılıb, əməliyyat-axtarış fəaliyyəti genişləndirilib. Narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində 8 cinayət faktı aşkarlanıb, 104 kiloqram 961 qram heroin, 4,2 qram tiryək, 2,6 qram marixuana, 179 qram metamfetamin, 10 ədəd tramadol adlı güclü psixotrop maddə, 20 ədəd klonazepam adlı psixotrop tərkibli dərman aşkar edilib. Şahtaxtı gömrük sərhəd-buraxılış məntəqəsində X-ray tipli rentgen nəzarət qurğusunun təsvirləri əsasında muxtar respublikadan tranzit hərəkət edən Türkiyə Respublikasına məxsus nəqliyyat vasitəsində 104 kiloqram 530 qram heroinin aşkarlanması Naxçıvan gömrükçülərinin bu sahədə ən böyük nailiyyəti olub.

Muxtar respublika gömrük xidmətinin digər hüquq-mühafizə orqanları ilə birgə fəaliyyəti də uğurlu nəticələr verib. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 9,5 qram marixuana, 100 ədəd tramadol adlı güclü təsiredici psixotrop maddə saxlanılıb.

Hesabat dövründə psixotrop maddələrin muxtar respublika ərazisinə gətirilməsinə dair müvafiq icazə sənədi olmadığından vətəndaşlardan 36 min tabletdən çox müxtəlif adda dərman vasitələri saxlanılıb ki, onların da 34 min tabletdən çoxu psixotrop tərkibli olub. Gömrük qaydalarının pozulmasına görə inzibati qaydada 73 icraat aparılıb və 23 min 800 manat cərimə ödənişi təmin olunub.

Qeyd olunub ki, gömrük orqanları tərəfindən xaricdən idxal istiqamətində gətirilən malların, o cümlədən qida məhsullarının keyfiyyətinə ciddi nəzarət edilib. Hesabat dövrü ərzində keyfiyyət göstəricilərinin təyini ilə bağlı, ümumilikdə, 244 ton məhsuldan alınan prob və nümunələrin ekspertizası aparılıb. Həmin mallardan 31 tondan artıq ərzaq və qeyri-ərzaq məhsulunun keyfiyyət göstəriciləri normalara cavab vermədiyindən, o cümlədən markalanma və qablaşması tələblərə uyğun olmadığından muxtar respublika ərazisinə buraxılmayıb.

Kollegiya iclasında cari ilin birinci yarısında gömrük sahəsində hüquqpozma hallarına qarşı mübarizə istiqamətində görülmüş işlərin və gömrük orqanlarında həyata keçirilmiş audit yoxlamalarının nəticələri müzakirə olunub, "Naxçıvan-terminalkompleks" Birliyinin yarımillik fəaliyyətinə dair hesabat dinlənilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində cari ilin altı ayının yekunları və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirəni xidmətin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev açaraq məruzə edib.***



Bildirilib ki, 2018-ci ilin may ayında muxtar respublikanın ictimai-siyasi, sosial həyatına müsbət təsir edən əlamətdar hadisə baş verib. Belə ki, Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyəti olan yüksəkliklər Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilib. Bu, vaxtilə öz doğma yurdlarından didərgin düşmüş soydaşlarımızın yenidən həmin ərazilərdə məskunlaşmasını və nəticədə, daxili miqrasiya proseslərini şərtləndirəcəkdir.

Qeyd olunub ki, hesabat dövründə xidmət tərəfindən qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində müvafiq tədbirlər həyata keçirilib və ümumilikdə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının miqrasiya sahəsində, o cümlədən inzibati qanunvericiliyin tələblərini pozan 165 əcnəbi aşkarlanıb. Həmçinin miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozmuş 10 əcnəbi öz ərizəsi əsasında könüllü olaraq Dövlət Miqrasiya Xidmətinin Qanunsuz miqrantların saxlanılması mərkəzində saxlanılıb.

Vurğulanıb ki, bəhs edilən dövrdə xidmətə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı ilə bağlı 4226, müvəqqəti yaşamaq üçün icazənin verilməsi ilə bağlı 312, daimi yaşamaq üçün icazənin verilməsi ilə bağlı 3, müvəqqəti yaşama icazəsinin yenidən rəsmiləşdirilməsi ilə bağlı 3, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Naxçıvan Muxtar Respublikasında haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün iş icazəsinin verilməsi ilə bağlı 22, Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə əlaqədar isə 113 müraciət daxil olub. Həmin müraciətlərin icrası mövcud qanunvericiliyə uyğun olaraq həyata keçirilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin kollegiya iclasında çıxış edən nazir Famil Seyidov bildirib ki, 2018-ci ilin birinci yarımili ərzində muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi 1 milyard 246 milyon manatdan artıq olub. Bu da bir il öncəki göstəricidən 1,4 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,3 faiz artaraq 2748 manatı ötüb. Ümumi daxili məhsulun tərkibində ilk yeri 30,1 faizlə sənaye tutub və maddi istehsalın payı 57,6 faiz təşkil edib.

Qeyd edilib ki, bəhs olunan dövrdə muxtar respublikada sənaye məhsulu istehsalının həcmi 1,4, əsas kapitala yönəldilən investisiyaların həcmi 2,1, kənd təsərrüfatı məhsullarının həcmi 3,6, informasiya və rabitə xidmətlərinin həcmi 2,6, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 1,6 faiz artıb.



Yeni layihələrin dəstəklənməsindən də danışan nazir vurğulayıb ki, 2018-ci ilin ötən dövrü ərzində iqtisadi fəaliyyətin müxtəlif sahələri üzrə 25 layihənin maliyyələşdirilməsinə 5 milyon 735 min 800 manat həcmində güzəştli kreditlər ayrılıb. Bu kreditlərin 5 milyon 150 min manatı sənayenin, 585 min 800 manatı kənd təsərrüfatının inkişafına yönəldilib. Sahibkarlığa göstərilən diqqət və qayğı nəticəsində iqtisadi fəaliyyətin müxtəlif sahələri üzrə 5-i özəl investisiyalı olmaqla, 29 istehsal və xidmət sahəsi istifadəyə verilib. Yeni yaradılan müəssisələrdə 272 iş yeri açılıb. Hazırda 20 layihənin icrası davam etdirilir.

Naxçıvanın ixrac potensialına da toxunan nazir diqqətə çatdırıb ki, sənayedə istehsalın həcminin artması nəticəsində cari ilin 6 ayı ərzində 150 milyon ABŞ dollarından çox sənaye, 40 milyon ABŞ dollarından çox kənd təsərrüfatı, o cümlədən meyvə və tərəvəz məhsulları ixrac olunub. Bundan əlavə, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə bağlı verilmiş tapşırıqların icrası istiqamətində muxtar respublikada fəaliyyət göstərən 14 müəssisənin istehsal etdiyi 40 çeşiddə hədiyyəlik məhsul və sənətkarlar tərəfindən üzərində "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" loqosu olan 748 suvenir hazırlanaraq 12 obyektdə satışa çıxarılıb.

Bildirilib ki, 2018-ci ilin 6 ayı ərzində 23 yeni olmaqla, ümumilikdə, rayon və kəndlərdə 730 emal sənayesi, kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələri yaradılıb. Kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafı diqqətdə saxlanılıb, 14 heyvandarlıq təsərrüfatı yaradılması başa çatdırılıb, bir heyvandarlıq təsərrüfatının yaradılması, 2 heyvandarlıq təsərrüfatının genişləndirilməsi davam etdirilib. Bunlardan əlavə, 2 quşçuluq və bir balıqçılıq təsərrüfatı yaradılıb, bir balıqçılıq təsərrüfatının genişləndirilməsi davam etdirilib.

Vurğulanıb ki, kənd təsərrüfatı sahəsində görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublikada verilən təkcə güzəştli kreditlər hesabına yaradılmış 270 heyvandarlıq, 84 quşçuluq, 14 balıqçılıq, 109 arıçılıq, 66 bağçılıq, 8 üzümçülük təsərrüfatı, ümumi tutumu 14 min 120 ton olan 32 soyuducu anbar, ümumi sahəsi 129 min 162 kvadratmetr olan 22 istixana kompleksi, 19 taxıl emalı müəssisəsi əhalinin mövsümi və ilboyu məhsullara olan tələbatının ödənilməsində mühüm rol oynayır.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

# Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyində keçirilən kollegiya iclasını giriş sözü ilə açan nazir Səbuhi Məmmədov bildirib ki, müəyyən edilmiş maliyyə və sosial siyasət strategiyası fonunda 2018-ci ilin birinci yarımilində Naxçıvan Muxtar Respublikasında bütün sahələr üzrə dinamik inkişaf davam etdirilib. Dövlət proqramlarının və layihələrin uğurla icrasına, investisiya proqramında elm, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət və idman obyektlərini özündə birləşdirən sosial layihələrin, içməli su və kanalizasiya sistemlərinin yaradılması, magistral yolların və kənd yollarının yenidən qurulması və yeni yolların inşası, meliorasiya və irriqasiya tədbirlərinin genişləndirilməsi və müasir tələblərə cavab verən suvarma sistemlərinin qurulması, alternativ enerji mənbələri layihələrinin icrası üzrə həyata keçirilən tədbirlərin səmərəli maliyyələşdirilməsinə nail olunub.

Qeyd edilib ki, ötən 6 ayda Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin gəlirləri 35 milyon 486 min manat təyinata qarşı 38 milyon 103 min manat və ya 107,4 faiz icra olunmaqla, büdcəyə nəzərdə tutulandan 2 milyon 617 min manat çox vəsait daxil olub. 2018-ci ilin yanvar-iyun aylarında büdcə gəlirlərinin 84,3 faizi və ya 32 milyon 130 min manatı Vergilər Nazirliyi tərəfindən təmin edilmiş vergi və rüsumlardan, 10 faizi və ya 3 milyon 806 min manatı Dövlət Gömrük Komitəsi tərəfindən toplanılmış daxilolmalardan, 4,9 faizi və ya 1 milyon 868 min manatı dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən, 0,8 faizi və ya 298 min 367 manatı isə digər mənbələr hesabına daxil olub.

Diqqətə çatdırılıb ki, bu ilin birinci yarımilində Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri 244 milyon 33 min 517 manat təyinata qarşı 215 milyon 368 min 550 manat və ya 88,3 faiz icra olunub. Büdcə təşkilatlarının təqdim etdikləri xərc sifarişləri üzrə xəzinədarlıq orqanları tərəfindən qəbul edilmiş öhdəliklər qanunvericiliyə uyğun olaraq tam və vaxtında maliyyələşdirilib.

2018-ci ilin yanvar-iyun aylarında büdcə xərclərinin 71,3 faizi və ya 153 milyon 542 min manatı cari xərclərə, 28,7 faizi və ya 61 milyon 826 min manatı isə əsaslı xərclərə yönəldilib. Əsaslı vəsait qoyuluşu xərclərinin böyük hissəsi muxtar respublikada quruculuq işlərinin aparılmasına, təhsil və səhiyyə müəssisələrinin tikintisinə, eyni zamanda infrastrukturun yenilənməsi layihələrinin maliyyələşdirilməsinə yönəldilib. Hesabat dövründə dövlət büdcəsinin icrası zamanı büdcədən maliyyələşən və ya maliyyə yardımı alan təşkilatlar tərəfindən satın alınan bütün mal-material və avadanlıqların real dəyəri ilə satın alınmasına nəzarət davam etdirilib, bununla büdcə vəsaitlərinə əhəmiyyətli dərəcədə qənaət olunub.

Nazir vurğulayıb ki, ötən altı ayda muxtar respublikanın Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına əsasən nazirliyin tabeliyində 2 yeni qurum – Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi və nazirliyin Dövlət Maliyyə Nəzarəti İdarəsi yaradılıb, Ali Məclis Sədrinin Fərmanına əsasən isə muxtar respublikanın Maliyyə Nazirliyinin Əsasnaməsində və strukturunda dəyişikliklər edilib. Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsinin yaradılması işlərə təkan verməklə təşkilatlarda aparılan maliyyə intizamının yoxlanılması üzrə nəzarət tədbirləri müəyyənləşdirilmiş qrafik əsasında sürətlə həyata keçirilir, qanunsuz xərclər dövlət büdcəsinə bərpa olunur.

“Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Maliyyə Nazirliyinə dövlət maliyyə nəzarətini gücləndirməsi, müəssisə və təşkilatlarda mühasibat uçotunun təşkili və aparılması, maliyyə hesabatlarının vaxtında təqdim edilməsi ilə bağlı tədbirlər görülməsi barədə tapşırıqlar verilmişdir”, – deyən Səbuhi Məmmədov vurğulayıb ki, kollektiv sessiyada qarşıya qoyulmuş vəzifələrin icrasını təmin etməli, büdcə vəsaitlərinin qanunauyğun və səmərəli istifadəsinə nəzarəti daha da gücləndirməli, etibarlı maliyyə nəzarəti sistemi inzibatçılığının formalaşmasına nail olmalıdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

***2018-ci ilin birinci yarısında kənd təsərrüfatı sahəsində görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı Kənd Təsərrüfatı Nazirliyində keçirilən kollegiya iclasını nazir Bəhruz Bayramov açaraq məruzə edib. Bildirib ki, hesabat dövründə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində torpaq mülkiyyətçilərinin istifadəsində olan torpaqlardan səmərəli istifadə edilməklə məhsul bolluğu yaradılıb, məhsulların keyfiyyəti artıb, rəqabətə davamlılıq yüksəlib, bazarlarda yerli məhsullar üstünlük təşkil edib.***



Qeyd olunub ki, muxtar respublikada ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində xüsusi əhəmiyyətə malik olan müasir təsərrüfatların yaradılmasına dövlət dəstəyi davam etdirilir. 1 iyul 2018-ci il tarixə muxtar respublikanın 87 kəndində böyük ailə təsərrüfatının sayı 201-ə çatıb. Həmin təsərrüfatlarda 5 min 997 baş mal-qara, 35 min baş xırdabuynuzlu heyvan, 8 min 712 baş quş, 4 min 700 arı ailəsi, 3 min 61 hektar əkin sahəsi, 47 hektar meyvə bağı, 7,8 hektar üzüm bağı, 32 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı maşın və mexanizmləri vardır. Verilmiş kreditlərdən səmərəli istifadənin nəticəsidir ki, bu təsərrüfatlarda bütün növlər üzrə məhsul istehsalı və məhsuldarlıq göstəriciləri yüksəkdir.

Bildirilib ki, əkinçilikdə, xüsusilə dənli bitkilərin məhsuldarlığının yüksəldilməsində keyfiyyətli toxum materialından istifadə əsas amillərdəndir. Hazırda muxtar respublikada 5 toxumçuluq və 1 tingçilik təsərrüfatı fəaliyyət göstərir. Ötən dövr ərzində muxtar respublikada taxılçılıqla məşğul olan sahibkarların keyfiyyətli toxum ilə təmin edilməsində “Bərəkət” toxumçuluq təsərrüfatının böyük rolu olub. Cari ildə də bu istiqamətdə işlər davam etdirilib.

Vurğulanıb ki, ərzaq təhlükəsizliyi baxımından əhalinin sağlam qidalanmasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə qəbul edilmiş dövlət proqramlarının müstəsna əhəmiyyəti vardır, onların icrası diqqət mərkəzində saxlanılır. Belə ki, ötən dövrdə 709 hektarda yeni meyvə bağları salınıb. Artıq həmin meyvə bağları məhsul verir. Hazırda muxtar respublikada 4 min 816,5 hektar sahədə meyvə bağları mövcuddur ki, bunun da 4 min 124,1 hektarı barverən bağlardır. Bundan başqa, “Araz” Elm-İstehsalat Birliyinin Ordubad dayaq məntəqəsində aparılmış tədqiqat işləri nəticəsində 372 meyvə sortunun genetik fondu toplanıb.

Diqqətə çatdırılıb ki, görülmüş işlərin nəticəsində 2018-ci ilin 6 ayı ərzində kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 128 milyon 162 min manat olub. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,6 faiz çoxdur.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



***“Naxçıvanqaz” İstehsalat Birliyində cari ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclasını birliyin direktoru Ramin İsmayılov açaraq məruzə edib. Bildirib ki, muxtar respublika üzrə təbii qaz istehlakçılarının 1 iyul 2018-ci il tarixə ümumi sayı 88 min 487 olub. Bunun 86 min 165-i əhali, 2322-si qeyri-əhali abonentlərdir.***

Muxtar respublikanın şəhər və rayon ərazilərində 6 ay ərzində daxil olan müraciətlərə əsasən cəmi 406 mənzil və müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb ki, bunun da 375-i əhali və 31-i qeyri-əhali abonentlərdir.

Qeyd olunub ki, muxtar respublikanın şəhər, rayon Qaz İstismar idarələrinin Qəza Dispetçer xidmətlərinə istər əhali, istərsə də qeyri-əhali təbii qaz istehlakçıları tərəfindən qaz sızması, qazın təzyiqinin düşməsi, tənzimləyicilərin dayanması və digər bu kimi səbəblərə görə birinci yarım il ərzində 7352 ədəd çağırış daxil olub. Qaz təsərrüfatı şəbəkəsində qaz analizatorlar və dedektorlar vasitəsilə 6205 ədəd sızma aşkarlanıb və sızmalar texniki istismar qaydalarına uyğun olaraq aradan qaldırılıb.

Bildirilib ki, abonentlərin kənar müdaxilələrdən qorunması üçün mexaniki qaz sayğaclarına aid 26 min 631 ədəd mühafizə qutusu quraşdırılıb. Mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqamətində işlər davam etdirilib. 1 iyul 2018-ci il tarixə, ümumilikdə, 17 min 151, o cümlədən 6 ay ərzində 575 smartkarttipli qaz sayğacı və mühafizə qutusu quraşdırılıb. Qaz şəbəkəsində qazın təzyiqinin texnoloji rejimə uyğun nəqlini və normal istismarını təmin etmək üçün yeni quraşdırılan müxtəlif markalı qaztənzimləyicilərin, siyirtmələrin və nəzarət-ölçü cihazlarının sayı 34 olub.

Vurğulanıb ki, qəza hallarının aradan qaldırılmasında operativliyin təmin edilməsi, yeni qaz xətləri çəkilərkən və bərpa olunarkən mövcud standartların tələblərinin gözlənilməsinə diqqətin artırılması, yaradılmış mal və material ehtiyatlarından səmərəli istifadə edilməsi, işlənən materialların yerinə yenilərinin alınması və sabit ehtiyat fondunun yaradılması diqqət mərkəzində saxlanılıb. Qəza təmiri üçün ehtiyat bazasına aid polad və polietilen borular, çilingər alətləri, köməkçi avadanlıqlar, işçi heyətinin peşə yönümü üzrə geyim forması və onların miqdarı, texniki vəziyyəti normaya uyğun bərpa edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda keçirilən müşavirəni giriş sözü ilə açan fondun sədri Əli Quliyev qeyd edib ki, 2018-ci ilin 6 ayı ərzində işçilərlə işəgötürənlər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət edilməsi zamanı Naxçıvan Muxtar Respublikasında 215 sahibkarlıq obyektində 236 yeni əmək müqaviləsi bağlanıb, 526 əmək müqaviləsində isə əməkhaqqı artırılıb.

Qeyd olunub ki, cari ilin 6 ayı ərzində fondun hesabına 26 milyon 520 min manat proqnoza qarşı 34 milyon 739 min 440 manat vəsait daxil olub, proqnoz tapşırıqlara 131 faiz əməl edilib.

Diqqətə çatdırılıb ki, hesabat dövründə büdcədən maliyyələşən təşkilatlar, həmin təşkilatlarda işləyənlər üzrə və büdcə təşkilatlarının büdcədənkənar vəsaitləri üzrə 24 milyon 18 min 930 manat məcburi dövlət sosial sığorta haqları büdcə təşkilatlarından daxil olub. Bu da nəzərdə tutulduğundan 5 milyon 914 min 930 manat, yaxud 32,7 faiz çox, 2017-ci ilin 6 ayı ilə müqayisədə 1 milyon 1 min 240 manat, yaxud 4,3 faiz çoxdur. Digər sığortaedənlərdən 10 milyon 720 min 510 manat vəsait daxil olmuşdur ki, bu da nəzərdə tutulduğundan 2 milyon 304 min 510 manat, yaxud 27,4 faiz çox olub.



Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu büdcəsinin xərcləri 70 milyon 141 min 546 manat icra olunub.

Hesabat dövründə Azərbaycan Respublikası Prezidentinin “Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında” imzaladığı 2018-ci il 9 fevral tarixli Sərəncamına əsasən bu kateqoriyadan olan əmək pensiyaçılarının pensiyalarının sığorta hissəsi 5,7 faiz artırılıb.

2018-ci ilin 6 ayı ərzində fondun yerli orqanları tərəfindən 804 nəfərə əmək pensiyası təyin edilib.

Qeyd olunub ki, əmək pensiyaları və müavinətlərin ödənişi üçün tələb olunan vəsaitin 50,4 faizi sığortaedənlərdən məcburi dövlət sosial sığortahaqqı şəklində yığılıb. Pensiya və müavinətlərin maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin tamamlanması üçün 37 milyon 300 min manat subsidiya alınaraq pensiya və müavinətlərin ödənilməsi üçün yerli orqanlara göndərilib.

Hesabat dövründə 1776 sığortaolunan sosial sığorta şəhadətnaməsi ilə təmin edilib. Beləliklə, fərdi uçot sistemində qeydə alınaraq sosial sığorta şəhadətnaməsi alan sığortaolunanların sayı 170 min 712 nəfərə çatıb.

Fondun sədri deyib ki, fondun internet səhifəsində 21 növ elektron xidmətin təşkili nəzərdə tutulub. Hazırda 16 aktiv elektron xidmət sığortaedənlərin istifadəsinə verilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublika üzrə İdarəsində keçirilən iclasda idarənin rəisi Fazil İbrahimov çıxışında bildirib ki, 2018-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin gəlirləri 38103,7 min manat və ya 107,4 faiz icra olunub. Büdcə daxilolmalarının 84,7 faizi və ya 32283,9 min manatı Naxçıvan Muxtar Respublika Vergilər Nazirliyi, 9,6 faizi və ya 3653,4 min manatı isə Naxçıvan Muxtar Respublika Dövlət Gömrük Komitəsi tərəfindən təmin edilib, 4,9 faizi və ya 1868 min manatı isə büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxil olub, 298,4 min manat və ya 0,8 faizi digər daxilolmalar vasitəsilə təmin edilib.

Qeyd olunub ki, 2018-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Dövlət büdcəsinin xərcləri 215368,6 min manat və ya 88,3 faiz icra olunub. Büdcə vəsaitinin 19,1 faizi, yaxud 41082,9 min manatı təhsilə, 10,5 faizi, yaxud 22562,3 min manatı məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluğun saxlanılmasına, 23,1 faizi, yaxud 49840,4 min manatı sənaye, tikinti və faydalı qazıntılar xərclərinə, 11,9 faizi, yaxud 25691,4 min manatı əsas bölmələrə aid edilməyən xidmətlərə, 8,1 faizi, yaxud 17340,6 min manatı kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi xərclərinə, 6,1 faizi, yaxud 13185,8 min manatı qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanılmasına, 5,7 faizi, yaxud 12329,6 min manatı səhiyyə, 4 faizi, yaxud 8622,8 min manatı mənzil və kommunal təsərrüfatı, 3,4 faizi, yaxud 7360,4 min manatı sosial müdafiə və sosial təminat, 2,9 faizi, yaxud 6109 min manatı nəqliyyat və rabitə, 2,9 faizi, yaxud 6261,2 min manatı mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə, 1,6 faizi, yaxud 3336,1 min manatı müdafiə, 0,1 faizi, yaxud 300 min manatı iqtisadi fəaliyyətlə bağlı, 0,6 faizi, yaxud 1328,7 min manatı elm xərclərinin maliyyələşdirilməsinə yönəldilib.

Bildirilib ki, idarənin 2018-ci ilin birinci yarısında təsdiq olunmuş iş planına uyğun olaraq Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərclərinə maliyyə-büdcə nəzarəti tədbirləri çərçivəsində idarə tərəfindən 4 müəssisə, idarə və təşkilatlar üzrə təhlil işləri və 4 müəssisə, idarə və təşkilatlarda audit yoxlamaları aparılıb. Auditlər zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq təşkilatlara məktub və maliyyə orqanlarına məlumat göndərilib.

Sonra məruzə ətrafında müzakirələr aparılıb.

**Xəbərlər şöbəsi**

*Dünən Ordubad Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin təşkili və qarşıda duran vəzifələr barədə tədbir keçirilib.*

# Ordubad rayonunda sığorta fəaliyyətinin təşkili ilə bağlı tədbir keçirilib



Tədbiri Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov açaraq rayonda sığorta sahəsində görülmüş işlərdən danışıb. Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək muxtar respublikanın iqtisadi və sosial həyatında sığorta işinin əhəmiyyətindən bəhs edib.

Vurğulanıb ki, ölkəmizdə qüvvədə olan mövcud qanunlara əsasən sığorta xidmətlərindən istifadə edən vətəndaşlar müxtəlif yerlərdə rast gələ bilən gözlənilməz hadisələrdən dəyən maddi zərərlərin ödənilməsinə etibarlı təminat alırlar. Bu baxımdan sığorta fəaliyyətinin daha da genişləndirilməsi vacibdir.

Baş direktor bildirib ki, ötən müddətdə Ordubad rayonunda da bu istiqamətdə işlər görülüb. Belə ki, Ordubad rayonu üzrə cari ilin ilk yarısında 4838 sığorta müqaviləsi bağlanılıb, onlardan 1168-i avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, 1752-si daşınmaz əmlakın icbari sığortası olub. O, Ordubad rayonunda daşınmaz əmlakın, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, ev əmlakı, fərdi qəza və digər sığorta növləri üzrə görülmüş işlərdən danışıb. Qeyd edib ki, ölkəmizdə qüvvədə olan qanuna əsasən icbari qaydada sığortanın şamil olunduğu bütün obyektlərin sığortası təmin olunmalıdır. Son dövrlərdə Ordubad rayonunda sığorta sahəsində görülmüş işlərlə bərabər, icbari qaydada sığorta etdirilməli vətəndaşlara və sahibkarlara məxsus daşınmaz əmlakın, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər vardır. Buna görə də Ordubad rayonunda sığorta fəaliyyətinin daha da genişləndirilməsi və bu sahədə maarifləndirmə işlərinə diqqətin artırılması vacib vəzifə kimi qarşıda durur.

Tədbirdə kənd təsərrüfatı sığortasının da əhəmiyyətinə toxunulub. Bildirilib ki, kənd təsərrüfatında aparılan sığorta işi digər könüllü sığortalar kimi, son nəticədə, insanların rifahının yüksəldilməsinə xidmət edir. Buna görə də Ordubaddakı əkin sahələrinin, meyvə bağlarının, lizinqə verilən kənd təsərrüfatı texnikalarının, habelə ev heyvanlarının və arı ailələrinin sığortalanması məqsədilə buradakı fermer və torpaq mülkiyyətçiləri, kənd təsərrüfatı texnikaları sahibləri arasında maarifləndirici işlər genişləndirilməlidir. Çıxışda ayrı-ayrı icbari və könüllü sığorta növləri üzrə icra vəziyyəti təhlil olunaraq hər bir sığorta növünün əhəmiyyəti diqqətə çatdırılıb.

Sonra Ordubad Rayon Polis Şöbəsinin İctimai Təhlükəsizlik Bölməsinin rəisi, polis mayoru Rauf Rüstəmov və rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəis müavini, daxili xidmət mayoru Hüseyn Həşimov, Dəstə və Dırnıs kənd icra nümayəndələri icbari sığortalar sahəsində görülmüş işlərin vəziyyəti barədə məlumat veriblər.

✍ **Əli CABBAROV**

*Naxçıvan Müəllimlər İnstitutunda beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında qarşıya qoyulan vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilib. İclası institutun tədris və tərbiyə işləri üzrə prorektoru Kamal Camalov açaraq məruzə ilə çıxış edib.*

# Müasir tədris binası, maddi-texniki təchizat böyük ruh yüksəkliyi və əzmkarlıq yaradıb



Bildirilib ki, may ayının 16-da Naxçıvan Müəllimlər İnstitutunun müasir standartlara cavab verən və yüksək maddi-texniki təchizata malik yeni binasının istifadəyə verilməsi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muxtar respublikamıza səfəri zamanı binanın açılışında iştirak edib ali təhsil ocağının kollektivi və şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşməsi institutun professor-müəllim heyətində, tələbə kontingentində böyük ruh yüksəkliyi və əzmkarlıq yaradıb.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 24 may tarixli qərarı ilə Naxçıvan Müəllimlər İnstitutunda struktur dəyişiklikləri aparılması məqsədilə ali təhsil ocağının yeni ştat cədvəli təsdiq olunub, mövcud prorektorluqlar ləğv edilib, yeni strukturlar yaradılıb. Həmin strukturlara yeni təyinatlar olub.

Qeyd olunub ki, 2018-ci ilin birinci yarımilində Naxçıvan Müəllimlər İnstitutu qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq istiqamətlər üzrə fəaliyyət göstərib. Hesabat dövründə bakalavriat və magistratura təhsil pillələrində 1149 tələbə təhsil alıb ki, onların da təhsili ilə 91 nəfər professor-müəllim heyəti məşğul olub. 2017-2018-ci tədris ilində bu ali təhsil müəssisəsinə 261 nəfər qəbul olunub. Magistratura təhsil pilləsi üzrə isə 35 nəfər qəbul planına qarşı 20 nəfər təhsil almaq hüququ qazanıb.

Diqqətə çatdırılıb ki, 6 ixtisas üzrə bakalavr, 4 ixtisas üzrə isə magistrantın hazırlandığı Naxçıvan Müəllimlər İnstitutunda tədrisin keyfiyyətini yüksəltmək, yeni ədəbiyyat və proqram, metodik vəsaitlərlə professor-müəllim heyətini məlumatlandırmaq və institutda tətbiq etmək üçün kafedralarda fənn komissiyaları fəaliyyət göstərir.

Vurğulanıb ki, ümumilikdə, 1149 tələbəsi olan ali təhsil ocağının ABŞ, Ukrayna, Rumıniya, Türkiyə, İngiltərə, Qazaxıstan və digər ölkələrin ali təhsil müəssisələri və elmi mərkəzləri ilə əlaqələri davam etdirilir.

Ümumilikdə, 2018-ci ilin I yarımilində institut əməkdaşlarının 114 elmi məqaləsi, beynəlxalq konfranslarda 7, respublika konfranslarında isə 74 tezisi, 6 kitab və monoqrafiyası, 4 dərs vəsaiti, 2 metodik vəsaiti, 42 fənn proqramı nəşr olunub.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

✍ **Gülcamal TAHİROVA**

# Dəmirli yaylağındakı obalarda tibbi xidmət göstərilib

*Yay mövsümünü Şərur, Şahbuz, Culfa və Ordubad yaylaqlarında keçirən heyvandarlara, onların ailələrinə səhiyyə xidmətinin təşkili davam etdirilir. Bu məqsədlə yaradılmış xüsusi həkim briqadaları tərəfindən obalarda yaşayan sakinlərin zəruri dərman vasitələri, sarğı materialları ilə təminatı, səhiyyə maarifi işi aparılması diqqətdə saxlanılır.*

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq Culfa Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası rayonun Dəmirli yaylağı ərazisində məskunlaşan heyvandarlara baş çəkib.

Bu yaylağın təbii-iqlim şəraiti, təmiz havası geniş və zəngin otlaq sahələri heyvandarlıqla məşğul olmaq üçün münbit şərait yaradır. Ərazidəki yaylaqlarda təkcə yerli fermerlər deyil, həmçinin muxtar respublikanın digər bölgələrindən gələn təsərrüfat sahibləri də ailəliklə oba qurub heyvandarlıqla məşğul olurlar. Onların sağlamlıqları daim diqqət mərkəzində saxlanılır. Hazırda Culfa rayonunun Camaldın kəndindən bu yaylaqda 2 oba məskən salıb. Çadırlarda fermer və çobanların 22 ailə üzvü yaşayır. Briqadanın fəaliyyəti zamanı onların hamısı profilaktik tibbi müayinəyə cəlb olunub. Yaylaqda arana nisbətən havaların sərin keçməsi səbəbindən obalardakı azyaşlı uşaqların bir qismində qulaqağrısı və yuxarı tənəffüs yollarının patologiyası müşahidə edilib, onların müalicəsi ilə bağlı lazımi dərmanlar verilib. Yaylaqda məskunlaşan ailələrə ilkin tibbi yardım üçün dərmanlar paylanılıb.

Heyvandarlar göstərilən tibbi xidmətə görə minnətdarlıqlarını bildiriblər.

Culfa Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşları isə ərazidə dezinfeksiya, dezinseksiya tədbirləri həyata keçirib, təhlil üçün su nümunələri götürüblər.

Obalarda tibbi xidmət mövsüm boyu davam etdiriləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

# Tələbələr Qars Qafqaz Universitetində təcrübədə olublar

Naxçıvan Dövlət Universiteti Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin Baytarlıq ixtisası üzrə təhsil alan tələbələri Türkiyənin Qars Qafqaz Universitetində birhəftəlik təcrübə kursu keçiblər.



Qars Qafqaz Universitetinin Baytarlıq fakültəsinin dekan əvəzi, dosent Sadiq Yayla və dekan müavini, dosent Səmra Kaya 2 müəllim, 7 tələbənin iştirak etdiyi nümayəndə heyətini qəbul edərək, klinik təcrübənin keçirilmə planına uyğun olaraq tələbələri əlaqədar şöbələrlə tanış ediblər.

Klinik müayinə və laboratoriya dərslərində iştirak edən tələbələrə əvvəlcə universitetin Cərrahiyyə kafedrasının professoru İsa Özaydın xəstə heyvanların qəbulu, qeydiyyatı, onların təsbiti, müayinə üsulları, qan və digər analizlərin götürülməsi qaydaları haqqında məlumat verib. Sonra cərrahiyyə praktikasında istifadə olunan müxtəlif növ tikiş üsulları haqda danışıb. Tələbələr cərrahların rəhbərliyi ilə tibbi əməliyyatlarda iştirak ediblər.

Yoluxmayan daxili xəstəliklər kafedrasında tələbələrə laboratoriya avadanlıqları və heyvanları ilə tanışlıq, vakuum şprislər vasitəsilə heyvanlardan qan alınması və sonradan onun sentrifuqada fırladılaraq fraksiyalara bölünməsi, heyvanlara müxtəlif üsullarla dərman maddələrinin yeridilməsi texnikası öyrədilib.

**Səadət ƏLİYEVA**

*Muxtar respublikamızda yeni stadionların istifadəyə verilməsi gənc nəslin sağlamlığının qorunmasında böyük rol oynayır. Belə stadionlar kənd yaşayış məntəqələrində də lazımi idman qurğuları ilə təmin edilərək gənclərin ixtiyarına verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıqlarına əsasən muxtar respublikanın Gənclər və İdman Nazirliyi tərəfindən Kəngərli rayonunda daha bir idman obyekti – rayon mərkəzi stadionunun yenidən qurularaq gənclərin istifadəsinə verilməsi də Naxçıvanda idmanın inkişafına növbəti töhfədir.*

# Kəngərli rayon mərkəzi stadionu yenidən təmir olunaraq gənclərin ixtiyarına verilib

Qeyd edək ki, stadionun suvarma sistemi yenidən bərpa olunub, 200 ədəd oturacaq quraşdırılıb, tamaşaçılar üçün nəzərdə tutulan sahədə kilid daşları yenidən döşənilib, stadionun ətrafında olan ad göstəriciləri yenilənib. Stadionda mövcud olan sadətipli idman qurğuları, basketbol və voleybol üçün nəzərdə tutulmuş meydançalar təmir olunub.

Stadionun açılış mərasimində çıxış edən Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov bildirib ki, bu gün muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, idmana da diqqət və qayğı göstərilir. Doğma diyarımızın şəhər və rayonlarında, kəndlərində yeni idman obyektləri, stadionlar tikilərək gənclərimizin ixtiyarına verilir. Bu, idmana, idmançılara göstərilən dövlət qayğısının bariz nümunəsidir. Kəngərli rayon mərkəzi stadionunun da yenidən bərpası rayonda uşaq və yeniyetmələrin, gənclərin asudə vaxtlarının səmərəli təşkil olunmasında müstəsna rol oynayacaq. Eyni zamanda yenidən təmir olunan stadionda keçiriləcək yarışlar, turnirlər istedadlı gənclərin üzə çıxarılmasına şərait yaradacaq.

Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Azad Cabbarov isə çıxışında vurğulayıb ki, gənc nəslə sağlam həyat tərzini təbliğ etmək, onların fiziki və mənəvi inkişafına yardım göstərmək dövlətin prioritetləri sırasında yer alır. Bu siyasəti idmanın inkişafı çərçivəsində dəyərləndirmək daha doğru olar. Bu gün muxtar respublikamızda idmanın inkişafı istiqamətində həyata keçirilən işlər bu sahənin nüfuzunu xeyli artırıb. Bu inkişaf idmançılarımızın beynəlxalq arenalarda əldə etdiyi medalların sayında da öz əksini tapıb.



Qeyd olunub ki, muxtar respublikada uğurlu idman siyasəti nəticəsində mütəmadi olaraq tədbirlər, yarışlar, turnirlər təşkil edilir, hər il idman infrastrukturu müasirləşdirilir, bu sahənin inkişafına davamlı qayğı göstərilir. Naxçıvanda yaradılan müasir idman infrastrukturu burada beynəlxalq yarışların yüksək səviyyədə keçirilməsinə imkan verir. Bu gün idmançılar üçün yaradılan şərait onların beynəlxalq arenalarda uğur qazanmasına zəmin yaradır. Mövcud infrastruktur, eyni zamanda uşaq və yeniyetmələrin, gənclərin sağlam, peşəkar idmançı kimi formalaşması baxımından böyük rol oynayır.

Diqqətə çatdırılıb ki, muxtar respublikamızın şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərində də idman obyektlərinin tikilməsi, mövcud obyektlərin yenidən qurulması artıq ənənə halını alıb. Naxçıvanın ölkəmizin Gənclər Paytaxtı olduğu bu ildə Kəngərli rayonunda yeni təmir edilən stadion da gənclərimizdə idmana marağı daha da artıracaq və onlar gələcəkdə futbol bacarıqlarını böyük arenalarda nümayiş etdirəcəklər.

Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının sədri Səbuhi Şahverdiyev bildirib ki, bu gün muxtar respublikanın şəhər və rayonlarında, kəndlərində idmanın kütləviliyinin təmin olunmasına xüsusi diqqət yetirilir. İdman sahəsində qazanılan uğurlar sağlam gənc nəslin yetişdirilməsi ilə nəticələnib. Şübhəsiz ki, bu nailiyyətlərin arxasında uğurla həyata keçirilən idman siyasəti dayanır.

Qeyd olunub ki, muxtar respublikamızda idmanın inkişafına göstərilən qayğı bölgələrimizdə uşaq, yeniyetmə və gənclərin bu sahəyə axınını gücləndirib. İdmanın bütün növlərinin kütləvi hal aldığı Naxçıvanda futbol xüsusi maraq kəsb edir. Muxtar respublikanın kəndlərində idmanın, xüsusilə futbolun inkişafı üçün əlverişli şəraitin olması, eyni zamanda yeni stadionların yaradılması gənclərin idmana marağını artırır.

Vurğulanıb ki, bu gün Kəngərli rayonunda istifadəyə verilən yeni stadionda da oyunların keçirilməsi üçün hər bir şərait yaradılıb. Uşaq, yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün stadionun ətrafında basketbol və voleybol meydançası, idman qurğuları quraşdırılıb.

Çıxışlardan sonra gənclərdən ibarət kənd komandaları arasında futbol üzrə rayon birinciliyinin ilk oyunu keçirilib. Qıvraq qəsəbə və Böyükdüz kənd komandaları meydana çıxıblar. Görüş Qıvraq qəsəbəsi komandasının 3:2 hesablı qələbəsi ilə yekunlaşıb.

✍ **Ceyhun MƏMMƏDOV**

***Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan milli mədəniyyətin inkişafı ilə bağlı məqsədyönlü siyasət bu gün muxtar respublikamızda da uğurla həyata keçirilməkdədir. Bu qədim diyarda incəsənət sahəsinə göstərilən qayğı, yaradılan əlverişli şərait nəticəsində istedadlı rəssamların sayı ildən-ilə artır, fəaliyyətləri genişlənir. Xüsusi istedada malik məktəblilərin və gənc incəsənət nümayəndələrinin yaradıcılıq nümunələri nümayiş etdirilir, həmçinin tanınmış rəssamlarımızın fərdi sərgiləri təşkil olunur, onların yaradıcılığına yüksək qiymət verilir. Bütün bunlar istedadlı rəssamlarımızın karyera yollarında uğurla irəliləməsinə səbəb olur.***

# Məharətli əllərin yaratdığı estetik harmoniya



Belə istedadlı rəssamlarımızdan biri də Səkinə Qarayevadır. Muxtar respublikamızda qazandığı uğurları və səmərəli fəaliyyəti ilə seçilən incəsənətin bu zərif nümayəndəsi ilə onun öz emalatxanasında yaxından tanış oldum. Hər bir əsərində mənəvi dünyasını əks etdirərək insana estetik zövq bağışlayan rəssamımız haqqında oxucularımıza da məlumat vermək istərdim.

Səkinə Qarayeva 1969-cu il martın 22-də Naxçıvan şəhərində dünyaya göz açıb. Məktəb illərində müəllimi Səməd Məmmədov onu rəssamlıq sənətinə həvəsləndirərək incəsənətin sirlərini öyrədib. Sonrakı illərdə bu həvəs böyük bir sevgiyə çevrilərək gənc rəssamın qabiliyyətini daha da inkişaf etdirib. Belə ki, 1984-cü ilin may ayında, Səkinə hələ 8-ci sinif şagirdi olarkən onun 27 əl işi ilə ilk fərdi sərgisi açılıb. Sərgidə dəmir üzərində döymə ilə bağlı işlərin heyranlıqla qarşılanması onun bu sahəyə marağını daha da artırıb. Sonralar Bakıda 84 nömrəli peşə məktəbində təhsil aldığı illərdə Səkinə dəfələrlə ümumrespublika sərgilərində və müsabiqələrdə iştirak edib. “Milli dəyərlərimiz – vətənpərvərlik” mövzusunda qadınlar arasında keçirilən müsabiqələrdə diplomlara layiq görülüb. Xalq yaradıcılığının inkişafındakı səmərəli fəaliyyətinə görə 2015-ci il noyabr ayının 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamına əsasən “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilib. 2016-cı il aprel ayının 20-də isə 52 işdən ibarət fərdi sərgisi açılıb, yeni ərsəyə gətirdiyi incəsənət nümunələri nümayiş olunub. Səkinə Qarayeva hazırda Heydər Əliyev adına Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində tətbiqi incəsənət üzrə dərnək rəhbəridir.

Yaradıcılığını rənglərin sirlərini açmağa və onların harmoniyası ilə maraqlı incəsənət nümunələri ərsəyə gətirməyə həsr etmiş Səkinə Qarayeva ilə söhbətimizdən:

– Reallığın təzahürünü bədii obrazlarla insana çatdıran incəsənət insanın özfəaliyyətinin nəticəsidir və bilavasitə onun özünə istiqamətlənir. İncəsənət nümunəsi yaratmaq üçün fantaziya, yaradıcılıq qabiliyyəti başlıca amil olduğu kimi, bu sənətin incəliklərini dərindən bilərək, işə professionallıqla yanaşmaq da əhəmiyyətlidir. Hər bir rəssamın yaratdığı əsər onun geniş mənəvi dünyasını, intellektini əks etdirir. İnsanın maraq dairəsi geniş olduğu müddətcə istedadı ilə paralel olaraq yaradıcılıq qabiliyyətini də inkişaf etdirə bilər. Mən bir rəssam kimi etüd, ya da istisnasız olaraq fantaziyaya dayanan işlərlə yanaşı, dekorativ-tətbiqi sənətə daha çox üstünlük verirəm. Mis və dəmir üzərində döymə, taxta üzərində yandırma ilə bağlı, balıqqulağı ilə işləmə kimi bir çox aplikasiya işlərim var. Fincanlarla, suvenirlərlə işləyir, vallarla qablar düzəldir, fantaziyama əsaslanaraq əl işləri hazırlayıram. Bütün işlərimdə isə xalq yaradıcılığına əsaslanıram. İncəsənətə olan marağım o qədər çoxdur ki, emalatxanama daxil olduqda yeni nələrsə yaratmaq istəyirəm. Sözsüz ki, bu həvəsimin yaranmasının başqa səbəbi isə hər bir yaradıcı insan kimi işimə göstərilən qayğı və təqdirolunma hissinin yaşatdığı zövqdür. Bunun üçün də biz rəssamlara yaradılan imkanlara görə dövlətimizə xüsusi minnətdarlığımı bildirirəm. Bu il oktyabrın 5-də müəllimlər günü münasibətilə növbəti fərdi sərgimi təşkil etmək istəyirəm. Həmin günü seçməyimin başlıca səbəbi isə bu şərəfli peşənin sahiblərinə olan hörmətimdir.

Səkinə Qarayeva söhbətinə davam edərək bildirir ki, hazırda yaradıcılıqla məşğul olmaqla yanaşı, yeni kadrlar hazırlamaq, gələcəyimiz olan uşaqların bu yönə olan maraqlarının artırılması üçün səylə çalışıram. Onlara tətbiqi incəsənətin sirlərini və incəlikləri öyrədirəm.

Rəssam onu da qeyd edir ki, bu gün muxtar respublikamızda bu sahəyə uşaqlarımızın həvəs və maraq göstərməsi üçün yaradılan hər bir şərait öz bəhrəsini verməkdədir. Sağlamlıq imkanları məhdud olan şagirdlərimizə xüsusi qayğı ilə yanaşılması sayəsində onlar da bu sənətə böyük maraq göstərirlər. Bir müəllim kimi respublika üzrə keçirilən yarışlarda şagirdlərimizin fəal iştirakı və onların uğurları məni çox sevindirir. Sənətsevərlərin müsabiqə və sərgilərdə uşaqlarımızın maraq dünyası ilə tanış olub dəstək olmaları, dövlətimizin böyük diqqət və qayğısı onlara stimul verir. İnsan öz işinə qayğı ilə yanaşıldığını gördükcə sənətinə daha da ürəkdən bağlanır. Mən də istər bir rəssam, istərsə də bu sahədə bir müəllim kimi işimi sevir və günü-gündən sənətimə bağlanıram.

**Jalə ALMƏMMƏDOVA**

*Sağlam həyat tərzi*

# İdmanda yaranan zədələrdən necə qorunaq

***İnsan sağlamlığı onun fiziki tərbiyəsi ilə vəhdət təşkil edir. Fiziki və mənəvi sağlamlığa xidmət edən, cəmiyyətimizin böyük bir hissəsinin maraqlarını özündə birləşdirən və təkamül yolu keçən idman nəzəriyyəsi geniş mənalarda işlədilir. Bəzən bu sahədə qazanılan bir uğur ölkənin bütün mövqeyini, abhavasını dəyişir. Düzdür, idmanla məşğul olan hər kəs olimpiya, dünya və ya Avropa çempionu olmur. Lakin peşəkar və həvəskar idmançıları birləşdirən bir məqam var: zədə. İdman edərkən rastlaşdığımız ən böyük problem zədələrdir. Bəzən bu zədələr idmançı karyerasına son qoya, hobbi kimi bu sahə ilə məşğul olanları uzaqlaşdıra bilər. Bəs idman edərkən zədələrdən necə qorunmaq lazımdır, yaxud bunun fiziki təlimləri varmı?***

İdman alimləri və həkimlərinin apardığı araşdırmalar göstərir ki, zədələrə səbəb daxili amillərdir, yəni yorğunluq, çoxlu fiziki iş, fərdi bədən xüsusiyyətləri. Bunun nəticəsində orqanizmdə sıyrıqlar, yaralar, yumşaq toxuma qırıqları, oynaqlar və sümük sınıqları yaranır ki, nəticədə, bu amillər insanın idmanetmə ənənəsini pozur və onu bu sahədən uzaqlaşdırır. Bu tipli zədələr, xüsusən idmançılar təlim-məşq toplanışlarında olarkən baş verir. Başvermə səbəbi isə idmançıların təlimin sonunda tətbiqi proqramı düzgün qiymətləndirə bilməmələridir.

Zədələr, əsasən, idman edərkən oynaqlarda baş verir ki, bu da 38 faiz təşkil edir. Müşahidələr göstərir ki, peşəkar idmanla məşğul olanların yalnız 9 faizi il ərzində qırıqlarla üzləşirlər. Maraqlısı odur ki, qış aylarında zədələr digər fəsillərlə müqayisədə daha çox olur.

Bəs zədələnməmək üçün hansı amillər yerinə yetirilməlidir? İlk olaraq idmanla məşğul olan hər bir kəs 20-30 dəqiqə ərzində isinmə hərəkətləri etməlidir. Səbəbi isə odur ki, isinmiş orqanizmdə zədənin əmələgəlmə ehtimalı azalır, isinməmiş orqanizmdə isə vətərlər, əzələlər birbaşa ağır yükə məruz qaldığı üçün zədə riski artır. Bəzən elə olur ki, orqanizmdə gizli xəstəlik baş qaldırır və zamanla vətərlər, bağlar və əzələlər daha çox zədəyə məruz qalır. Bağ və əzələ dartınmaları idmançılarda hərəkətin biomexanikası pozulduqda baş verə bilər. Bu hallar çox vaxt insanın ayaq və bud nahiyələrində olur ki, belə zədələrə futbol, basketbol, gimnastika növləri ilə məşğul olan idmançılarda rast gəlmək mümkündür. Ümumiyyətlə, bir çox zədələr var ki, onlar müəyyən idman növləri ilə “dostlaşıblar”. Məsələn, atletika ilə məşğul olanlar yarımkəskin və xroniki travmatik xəstəliklərlə mübarizə aparmalı olurlar. Onlarda, əsasən, aşağı əzalarda zədələr baş verir. Atıcılar isə tez-tez yuxarı əza və çiyin-qurşaq əzələlərində yaranan problemlərlə üzləşirlər.

Elit idman növü kimi ad qazanan bədii gimnastikada idmançılar barmaqlar üzərində süründürmə, qançırlar, bilək, dirsək, çiyin, ayaq biləyi və diz oynaqlarında zədələrlə tez-tez üzləşirlər. Bunu bəzən həkimlər yaxşı edilməyən isinmə hərəkəti ilə əlaqələndirirlər. Futbolda daha çox ayaq biləkləri və diz oynaqları, baldır hissədəki əzələlər dartınmalara məruz qalır. Dizdə isə meniscus yaranır. Futbola aid zədələri basketbola da şamil etmək mümkündür. Lakin basketbolda əl, barmaq və dirsəyin tez-tez zədələnməsi idmançıların bəzən karyeralarını vaxtından əvvəl başa vurması ilə nəticələnir. Boksla məşğul olan idmançılar yarış zamanı rinqdə nokdaun və ya nokauta düşürlər. Bu hal onlarda qapalı kəllə-beyin travması ilə nəticələnə bilər. Güləşdə isə idmançılar daha çox çiyin oynaqları – çiyin və qol, körpücük sümüyü sınıqları dislokasiya, çiyin-qurşaq yuxarı əza əzələlərinin zədələnməsindən şikayətlənirlər.

Bir sıra idman alimləri, həkimləri zədələrin səbəbini daxili amillərlə əlaqələndirirlər. Xüsusilə həkimlər bunu nəzərə alaraq bəzi məsləhətlər görürlər. İlk olaraq müntəzəm tibbi nəzarətə, gigiyenik qaydalara riayət etmək lazımdır. Bununla yanaşı, məşğul olunan idman növünü tam dərk edib, sonra ona aid qurğulardan istifadə etmək, zədələnməmək üçün psixoloji hazırlıq keçmək mütləqdir.

Bəzən bu zədələri eşidib idman sahəsinə gəlmək fikrindən daşınanlar da var. Lakin qeyd etməliyik ki, idmanın bütün növləri insan üçün faydalıdır, insan sağlamlığına müsbət təsir göstərir və ömrü uzadır. Zədə riski az olan idman növləri sırasında üzgüçülük, suyatullanma, atıcılıq, stolüstü tennisi qeyd etmək olar. Bu idman növləri ilə məşğul olan insanlarda erkən ölüm riski digərləri ilə müqayisədə aşağıdır. Şahmat isə uşaq və yeniyetmələr üçün ən ideal növdür. Hiperaktiv uşaqların daha çox bu idman növü ilə məşğul olması həkimlər tərəfindən məsləhət görülür.

İdman çətin və mürəkkəb sahədir. İdmançı olmaq istəyən kəs bu yolun çox çətin olduğunu qəbul etməlidir. Məqsəd peşəkar idmana yönəlmək deyil, sadəcə, fiziki sağlamlığı qorumaqdırsa, o zaman istənilən növlə hobbi kimi məşğul olmaq olar. Təbii ki, burada fiziki yüklənmənin qarşısı alınmalı, sonra məşq, onun strukturu, texnikası yerinə yetirilməlidir. İdman mütəxəssislərinin də təbirincə desək, idmanda zədələrdən qorunmaq tək idmançının yox, onun məşqçisinin, komandasının da işidir. Çünki məşqçinin düzgün qurduğu məşq prosesi, həkimin düzgün müalicəsi və profilaktika planı idmançını daha tez sağaldır, onu peşəkar idmana daha tez adaptasiya edir.

# Növbəti seminar-müşavirə keçirilib



*Naxçıvan Şəhər Təsərrüfatəsablı Nəqliyyat İdarəsində əhaliyə sərnişindaşıma xidməti göstərən sürücülərin iştirakı ilə növbəti seminar-müşavirə keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin şöbə müdirləri Zaur Əliyev və Elxan Novruzov, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Dövlət Yol Polisi İdarəsinin əməkdaşı Ayaz İsmayılov çıxış ediblər. Çıxışlarda muxtar respublikada avtomobil nəqliyyatı ilə sərnişindaşımaları yerinə yetirən sürücülərin intizam qaydaları barədə məlumat verilib.

Bildirilib ki, muxtar respublikada avtomobil nəqliyyatı sahəsində aparılan islahatlar, yol-nəqliyyat infrastrukturunun yenilənməsi, bu sahədə həyata keçirilən müxtəlif tədbirlər avtomobil nəqliyyatı ilə sərnişin və yükdaşımaların müasir tələblərə uyğun yerinə yetirilməsinə əlverişli şərait yaradıb.

Qeyd edilib ki, bu ilin ötən dövrü ərzində şəhərlərarası və rayonlararası marşrut avtobuslarının qrafiki təkmilləşdirilib, xətlərə çıxan avtobus və taksilərin texniki baxışları təşkil olunub. Vurğulanıb ki, taksi sürücüləri ilə mütəmadi olaraq maarifləndirmə işləri aparılır. Bu gün muxtar respublikamıza gələn turistlərə göstərilən nəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi, qonaqlara ünsiyyətin düzgün qurulması əsas məsələlərdəndir. Bu mənada, sürücülərin iştirakı ilə maarifləndirici xarakterli seminar-müşavirələrin keçirilməsi, muzeylərə ziyarətlərin təşkili, onların muxtar respublikanı təbliğ edəcək məlumat nəşrləri ilə təmin edilməsi xüsusi önəm daşıyır.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

# Güləş üzrə şəhər birinciliyi başa çatıb

İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbində məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə yeniyetmələr (2002-2004-cü illər) arasında yunan-Roma güləşi üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası ilə şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə 7 çəki dərəcəsi üzrə 40-a yaxın idmançı qüvvəsini sınayıb.



Yekun nəticəyə əsasən Turqay Allahverdiyev, Uğur Məmmədov, Hüseyn Əhmədli, Fərid Əsgərli, Abbas Nəzəraliyev, Əli Əlioğlu və Qoca Əhmədov müvafiq olaraq 45, 48, 51, 55, 60, 65 və 71 kiloqram çəki dərəcələrində qalib adını qazanıblar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılara diplomlar verilib.

**✍ Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 535